İyunun 13-də Təhsil Nazirliyində mərkəzləşdirilmiş buraxılış imtahanının nəticələrinə dair mətbuat konfransı keçirilib.

Konfransı giriş sözü ilə açan təhsil naziri Misir Mərdanov 52 min şagirdi əhatə edən buraxılış imtahanının nəticələrindən, müvəffəqiyyət göstəricisindən razı qaldığını bildirib. Mərkəzləşdirilmiş imtahanların keçirilməsində əsas məqsədin orta ümumtəhsil məktəblərində təhsilin keyfiyyətinin, müəllim və şagirdlərin fəallığının artırılması olduğunu qeyd edən nazir konfransda hər bir rayon üzrə nəticələri media nümayəndələrinin diqqətinə çatdırıb.

Sonra Misir Mərdanov bildirib ki, şagirdlərin yekun attestat qiyməti Təhsil Nazirliyinin internet saytında yerləşdiriləcək. Nazir həmçinin yekun qiymətin toplanması düsturu ilə iştirakçıları tanış edib və bu düstura əsasən şagirdlərin X-XI siniflərdəki illik qiymətinin, mərkəzləşdirilmiş qaydada keçirilmiş yoxlama imtahanının nəticələrinin nəzərə alınacağını açıqlayıb. Eyni zamanda Misir Mərdanov imtahanda müvəffəqiyyət qazanmayan şagirdlərin iyunun 19-da təkrar imtahan vermək imkanına malik olduğunu vurğulayıb.

Mətbuat konfransının sonunda media nümayəndələrinin çoxsaylı sualları cavablandırılıb.